# DAĞLIQ ŞİRVAN İQTİSADİ RAYONUNDA YAŞAYIŞ MƏNTƏQƏLƏRİNİN VƏ İNFRASTRUKTURUN YERLƏŞMƏSİNƏ LANDŞAFT AMİLLƏRİNİN TƏSİRİ

**Mirzəyeva G.C., Kərimova L.R.**

*Bakı Dövlət Universiteti*
*gular_mirzayeva@mail.ru*

Dağlıq Şirvan İqtisadi rayonu Ağsu, İsmayıllı, Qobustan və Şamaxı rayonlarını əhatə edir. İqtisadi rayon Böyük Qafqazın cənub-şərq ətəkləri və Şirvan düzündə yerləşir. Sahəsi 6,06 min km$^2$ olan Dağlıq Şirvan ölkə ərazisinin 7%-i əhatə edir. Region seysmik cəhətdən fəal zonada yerləşir. İqlim şəraiti çox müxtəlifdir, əsasən mülayim-isti və soyuq iqlim tipləri yaranır. Aqroiqlim şəraiti dağlarda dəmyə şəraitində, düzənliklərdə suvarma ilə kənd təsərrüfatı məhsulları becərilməsinə imkan verir. Dağlıq Şirvan iqtisadi-coğrafi rayonunda əsas çaylar Girdimançay və Ağsuçay və Pirsaatçaydır. Güclü sel hadisəsi Girdimançayda müşahidə olunur. Xüsusi ilə yuxarı axında yerləşən yaşayış məntəqələri və son dövrlərdə sayı artmış turizm obyektləri sel daşqınları zamanıdaha çox ziyan çəkir. Dağlıq Şirvan fəal geosinklinal ərazidə yerləşir və 9 ballıq zəlzələ zonasına aiddir.

İqtisadi rayonda əhalinin sayı 289,9 min nəfər, o cümlədən şəhər əhalisi 90,7 min nəfərdir. Ölkə əhalisinin 3,1%-i burada yaşayır. Əhalinin orta sıxlığı hər km$^2$ -ə 48 nəfər, urbanizasiya səviyyəsi 31,3%-dir (2012). İqtisadi rayonda olan əsas faydalı qazıntılara yanar şist, çınqıl, qum, əhəng və digər tikinti materialları aiddir. Dağlıq zonalar müalicə və kurort əhəmiyyətli mineral sularla zəngindir. Tərkibi əsasən kükürdlə, hidrokarbonatlarla zəngin olan bulaqların suyundan müalicə və içmək məqsədilə istifadə edilir. Şamaxı və İsmayıllı rayonlarının iqlim-balneoloji şəraiti, meşələr (8%) əsas sərvətlərə daxildir. Şamaxıda maşınqayırma müəssisələri fəaliyyət göstərir. Kənd təsərrüfatı məhsulları emal edilir. Yüngül sənaye tikiş və xalçaçılıq sahələri ilə təmsil olunur. Yeyinti sənayesində əsas yeri şərabçılıq tutur. Tikinti materialları istehsalı (Şamaxı və Qobustan rayonlarında daş karxanaları, kərpic zavodu) müəssisələri vardır. Lahıc qəsəbəsində misgərlik məlumatları, Basqal kəndində və Şamaxı şəhərində ipək və kələgayı sexləri fəaliyyət göstərir. İqtisadi rayon magistral yollardan kənarda yerləşir. Bakı-Şamaxı-Ağsu-Kürdəmir avtomobil yolu rayon ərazisindən keçir. Padar stansiyası ilə Çöl Göylər kəndi arasında dəmiryol xətti çəkilmişdir. Kənd təsərrüfatının əsasını taxılçılıq, meyvəçilik, tərəvəzçilik, üzümçülük təşkil edir, kartof, günəbaxan becərilir. Heyvandarlığın başlıca sahəsi maldarlıq və qoyunçuluq-dur, arı saxlanılır, baramaçılıq üçün əlverişli şərait vardır.

Dağlıq relyefin üstün olması, regiona xüsusi yanaşma tələb edir. Ərazinin təbii-coğrafi şəraiti regionda əhalinin yerəşməsinə və təsərrüfat fəaliyyətinə ciddi təsir göstərir. Burada relyef, iqlim,eləcə də təbii fəlakət-

lərinin (sel, sürüşmə və zəlzələlərin) rolu daha böyükdür. Relyef amilini nəzərə alaraq deyə bilərik ki, ərazinin 1500-2000 m yüksəklikləri arasında Şamaxının iki, İsmayıllının beş yaşayış məntəqəsi yerləşir. Hündürlüyü 2000 m-dən yuxarıda isə yaşayış məntəqəsi yoxdur. Dağlıq Şirvan iqtisadi-coğrafi rayonu ərazisində yarımsəhra və quruçöl, mülayim-isti, soyuq və dağ-tundra iqlim tipləri yayılmışdır. Regionda demək olar ki, bütün sosial infrastruktur obyektləri yarımsəhra-quru çöl və mülayim-isti iqlim zonasındadır. Təsərrüfat sahələrinə ən çox ziyan vuran təbii hadisələrdən biri də sürüşmə hadisəsidir. Dağlıq Şirvanda fəal sürüşmə zonaları Böyük Qafqazın cənub yamacında, Muğanlı-İsmayıllı yolunda, Şamaxının Muğanlı, Cabanı, Dədəgünəş kəndlərində, Şamaxı-Pirqulu-Dəmirçi yolunda, İsmayıllının Vaşa, Diyallı, Sulut, II Yeniyol, Sədiyan, Tircan, Zərnəva, Xankəndi, İstisu kəndlərində, Namazgah-Lahıc yolunda, Ağsuda Kalva, Gürcüvan, Xatman, Kalva, Suraxanı, Dilman, Cəgərək və Sanqalay kəndlərində daha çox rast gəlinir.